***Zeynəb Bəhmənli,***
***AJB-nin və AYB-nin üzvü***

## *Xocalı*

Günahsızlar yol azdılar dağında,
Qırıldılar çovğununda, qarında.
İgidlərin qurban getdi yolunda,
Unudarmı, tarix, zaman Xocalı!

Erməni başına nələr gətirdi?
Əsrin faciəsi olan Xocalı!
Əsir aldı cavanı, həm qocanı,
Baharın qış gəldi, yaman Xocalı!

Taleyin nə yaman gətirdi qara,
Xalqımı əzdilər, çəkdilər dara.
Sinənə vurdular sağalmaz yara,
Kəsilməz fəryadın, aman Xocalı!

Ceyranlı çöllərin, düzlərin ağlar,
Müsibət günlərin sinəmi dağlar.
Yurdumda at çapır niyə yağılar?
Susub sənsiz dərdi kaman, Xocalı!

Dünyaya dərd oldu Xocalı dərdi,
Zeynəb sevinc əkdi, kədəri dərdi.
Gələ bu torpağın ağası, mərdi,
Şəkilə başından duman Xocalı!

## *Tənhalıq*

Ağladım içimdə, güldüm içimdə,
Görəsən, dərd varmı, dərdim biçimdə?
Tənhalıq qoşunun çəkib üstümə,
Bilməm, axı, niyə durub qəsdimə?

Tənhalığın yaxşı bilər acısın,
Yarı özgəsinin yarı olanlar.
Adı ərli, özü ərsiz qalanlar,
Qara sevdaya düşüb yananlar.

Dağlar da əzəldən yaranıb qoşa,
Sinə gərib onlar da hər savaşa.
Quşlar da yuvada verib başbaşa,
Tənhalıq istəməz, sevməz heç onlar.

Ulu dağlar tarixlərin yaddaşı,
Dərələr, qayalar dostu, sirdaşı,
Yamaclar dərənin kiçik qardaşı,
Tənhalığı istəməz, sevməz heç onlar.

Tənhalıq elə ağır dərddi ki,
Diləram, kimsəyə nəsib olmasın.
Zeynəb onu bütövlükdə dərdi ki,
Bir daha göyərməsin, heç bitməsin...

## *Gəl məndən soruş*

Yurdu talan olanların,
Evi odda yananların,
Çadırda yurd salanların
Halını gəl məndən soruş.

Hər müsibət görənlərin,
Oğul şəhid verənlərin
Saçını ağ hörənlərin -
Halını gəl məndən soruş.

Dərd əkib qəm dərənlərin,
Zindanda can verənlərin.
Əsirlikdə ölənlərin -
Ünvanın gəl məndən soruş.

## *Getməyim gəlir*

İllərdir röyada bulaq görürəm,
Yolları ot basmış, alaq görürəm.
Əsir qalan ellər, obalar gəzdim,
Ruhlar bizdən küskün, gileyin sezdim.
Ayıldım... Allah, gözümdə yaş gördüm,
Bilməm, bu həsrətə, bəs necə dözdüm?

Yamacda bənövşə, nərgiz üzərdim,
O güllər saçlarıma düzərdim.
Toylarında qol götürüb süzərdim.
İndi o yerlərə getməyim gəlir,
O yurdu ziyarət etməyim gəlir.

Quşların cəh-cəhinə, şən səsinə,
Biçarə bülbülün eşq naləsinə,
Körpə bir quzunun mələməsinə
Köçüb o yerlərə getməyim gəlir,
O yurdu ziyarət etməyim gəlir.

Rəssam təbiətin əl işlərini,
Dağ cığırın, yoxuş-enişlərini,
Nazlı gözəllərin gülüşlərini,
Doyunca seyr edib, görməyim gəlir,
O yurdu ziyarət etməyim gəlir.

O zümrüd meşələr, bülbüllü bağlar,
Zümzümə eyləyən qərib bulaqlar,
Çağırır qoynuna laləli dağlar,
Köçüb o yerlərə getməyim gəlir,
O yurdu ziyarət etməyim gəlir.

Ana qucağının xoş istisinə,
Ata ocağının gur tüstüsünə,
Çoban bayatısı, tütək səsinə,
Köçüb o yerlərə getməyim gəlir,
O yurdu ziyarət etməyim gəlir.

Orada nakam bir sevda ağlayır,
Göz yaşı, naləsi sinə dağlayır,
Könlüm sirr yeridi... Nələr saxlayır,
Köçüb o yerlərə getməyim gəlir,
O yurdu ziyrət etməyim gəlir.